**AUDİT 2023, 2 (40), səh. 17-27.**
**AUDIT 2023, 2 (40), pp. 17-27.**
**АУДИТ 2023, 2 (40), стр. 17-27.**

**DOI: 10.59610/bbu2.2023.2.2**

*İbrahimov Fuad Maarif oğlu,*
*iqtisad üzrə fəlsəfə doktoru,*
*"Sosial-iqtisadi və Ekoloji Tədqiqatlar Mərkəzi"*
*İctimai Birliyinin iqtisadi məsələlər üzrə eksperti,*
*E-mail: fuadibrahim@mail.ru*
*© İbrahimov F.M., 2023*

**UOT: 330.322;334.02**

# İNNOVASİYA BİZNESİNİN İNVESTİSİYALAŞDIRILMASI PROSESİNDƏ RİSKLƏRİN İDARƏ EDİLMƏSİ

## X Ü L A S Ə

Məqalədə aqrar-sənaye sahələrində innovasiyalı inkişafın investisiyalaşdırılması prosesində biznes subyektlərinin rastlaşdıqları risklərin xarakteristikası verilmiş, onların idarə edilməsinin aktual problemləri tədqiq olunmuşdur.

**Tədqiqatın məqsədi** – aqrar-sənaye sahələrində innovasiya biznesinin investisiyalaşdırılması prosesində risklərin idarə edilməsi sisteminin təkmilləşdirilməsi imkanlarının müəyyən edilməsi və onların reallaşdırılması istiqamətlərinin əsaslandırılmasıdır.

**Tədqiqatın metodologiyası** – tədqiqat prosesində müşahidə, müqayisəli təhlil, elmi abstraksiya və məntiqi ümumiləşdirmə üsullarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** - əsaslandırılmış müddəalar və əldə edilmiş nəticələr aqrar-sənaye sahələrində innovasiya biznesinin inkişafı üçün investisiya layihələrinin hazırlanması və həyata keçirilməsi zamanı risklərin idarə olunmasında istifadə edilə bilər.

**Tədqiqatın nəticələri** – aqrar-sənaye sahələrində innovasiya biznesinin investisiyalaşdırılması prosesində risklərin idarə edilməsi mühiti xarakterizə olunmuş, idarəetmənin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – innovasiyalı aqrar-sənaye biznesinin investisiyalaşdırılması prosesində qarşıya çıxan risklərin idarə edilməsi sisteminin təkmilləşdirilməsi imkanları aşkar edilmiş, onların reallaşdırılmasının vasitə və istiqamətləri əsaslandırılmasıdır.

**Açar sözlər**: innovasiya, risk, biznes, aqrar-sənaye, investisiya, istehsal, layihə, vençur.

## G İ R İ Ş

İnvestisiya layihələrinin hazırlanması və icrası zamanı investorların innovasiya biznesinə marağı risklərin idarə edilməsinin səmərəliliyi səviyyəsi ilə əlaqədardır. Aqrar-sənaye sahələrinin yüksək riskli olması burada innovasiyalı fəaliyyət göstərən bisnes subyektləri və investorlar üçün risklərin səmərəli idarə edilməsi məsələlərini daha da aktuallaşdırır. Sahədə innovasiyalı fəaliyyət göstərən biznes subyektlərinin rəqabət qabiliyyətinin və ümumilikdə səmərəliliyinin yüksəldilməsi onların investisiya cəlbediciliyi ilə qarşılılıqlı əlaqədardır. Odur ki, müvafiq layihələrin investisiyalaşdırılması barədə qərar qəbul edilərkən risklərin qarşılanması, neytrallaşdırılması, optimal bölgüsü və bu kimi bir sıra digər məsələlərin həlli prioritet vəzifələr hesab edilir. Qeyd olunan amillər aqrar-sənaye sahələrində innovasiya biznesinin in-

AUDİT 2023, 2 (40), səh. 17-27.
AUDIT 2023, 2 (40), pp. 17-27.
АУДИТ 2023, 2 (40), стр. 17-27.

vestisiyalaşdırılması prosesində risklərin idarə edilməsi sisteminin təkmilləşdirilməsi problemlərinin aktuallığını şərtləndirir.

İnvestisiyaların idarə edilməsi mürəkkəb proses olub, mövcud potensialın və yaxın perspektivə gözlənilən meyillərin hərtərəfli surətdə nəzərə alınmasını tələb edir. İnnovasiyalı inkişafa investisiyaların idarə edilməsində qeyri-müəyyənlik və ondan irəli gələn risklərin ehtimalı daha yüksəkdir (1). Bütün hallarda investisiyaların idarə edilməsi biznes subyektinin investisiya syasətinin prioritetlərinin (müəssisənin rəqabət qabiliyyətinin, onun məhsullarının bazarın müvafiq seqmentində payının, biznes qurumunun sahənin inkişafında rolunun artırılması və s.) reallaşdırılmasına yönəlmiş idarəetmə qərarlarının işlənib hazırlanması və icrası üzrə tədbirlərin həyata keçirilməsi prosesidir (12).

Aqrar və ya aqrar-emal biznesinin rəqabət qabiliyyətinin yüksəldilməsi onun məhsullarının bazarın məlum seqmentində payının artırılması və bir sıra digər məsələlərlə birgə nəzərdən keçirilməli və müvafiq investisiya qərarı qəbul edilməlidir. Bu zaman, əlbəttə risklərin qarşılanması, neytrallaşdırılması, optimal bölgüsü və s. kimi məsələlərin həlli prioritet vəzifə hesab edilir.

Aqrar-sənaye sahələrində fəaliyyət göstərən biznes subyektlərinin idarə edilməsində baza prinsiplərinin reallaşdırılması investisiyaların idarə edilməsində arzu olunan nəticələri əldə etməyə imkan verir. Burada haqqında danışılan baza prinsiplərinə, ilk növbədə, aşağıdakılar aid edilir: müəssisənin inkişaf tempinin yüksəldilməsi; onun mənfəətin artırılması; fəaliyyətinin və inkişafının maliyyə dayanıqlığının təmin edilməsi; qarşıya çıxan və gözlənilən risklərin minimuma endirilməsi; hərtərəfli əsaslandırılmış investisiya qərarlarının vaxtında qəbul edilməsi və i.a. Yeri gəlmişkən, onu da qeyd edək ki, investisiya mühitinin səmərəli tənzimlənməsi sisteminin xarakteri və inkişaf səviyyəsi də bu baxımdan həlledici əhəmiyyətə malikdir.

İnvestisiyaların idarə edilməsi, sərbəst pul vəsaiti yığımının investisiyaya çevrilməsindən tutmuş, onun istifadəsi nəticəsində səmərənin əldə edilməsinə qədər davamlı və çoxmərhələli prosesdir (11). Bu baxımdan investisiya proseslərinin təşkili mərhələləri kimi, ilk növbədə, yığımın investisiyaya çevrilməsi, onların əsas kapitala yönəldilməsi və nəticə (səmərə) əldə edilməsi mərhələləri fərqləndirilə bilər.

İnvestisiyaların idarə edilməsinə gəldikdə isə aşağıdakı mərhələlərin göstərilən ardıcıllıqla icrası təmin olunmalıdır: biznes subyektinin inkişafının əvvəlki dövrlərində investisiya proseslərinin təhlili və qiymətləndirilməsi; gələcək investisiyalar üçün zəruri olan vəsaitin miqdarının müəyyən edilməsi; investisiya fəaliyyətinin həyata keçirilməsinin maddi formasının, başqa sözlə, investisiya formalarının seçilməsi; biznes subyektinin qarşıya qoyduğu məqsəd və vəzifələrə uyğun investisiya layihəsinin seçiminin əsaslandırılması.

İnvestisiya layihəsinə investisiya fəaliyyətinin həyata keçirilməsi üçün investisiyalaşdırma tədbirlərinin məcmusu kimi baxıla bilər. İnvestisiya layihələrinin idarə edilməsi sistemi vəsaitin, keyfiyyətin, qiymətlərin, risklərin, işçi heyətinin idarə edilməsi istiqamətlərini əhatə edir. Bura, həmçinin müqavilələrin və razılaşmaların, habelə müvafiq informasiya əlaqələrinin (qarşılıqlı informasiya axınlarının) idarə edilməsi aiddir. Müvafiq mənbələrdə göstərildiyi kimi, investisiya layihələrinin icrası tədbirləri aşağıdakıları nəzərdə tutmalıdır:

- investisiya fəaliyyəti göstərən bütün subyektlərin iqtisadi maraqlarının üst-üstə düşməsi, konkret obyektə investisiyaların vaxtında yönəldilməsi və istifadə edilməsində kifayət qədər maraqlı olması (13, s.914-928);

**AUDİT 2023, 2 (40), səh. 17-27.**
**AUDIT 2023, 2 (40), pp. 17-27.**
**АУДИТ 2023, 2 (40), стр. 17-27.**

- investisiya fəaliyyətinin səmərəliliyinin təhlil edilməsi və gözlənilən müxtəlif xarakterli risklərin qiymətləndirilməsi;

- investisiya layihəsinin icrası prosesində həyata keçirilmiş nəzarət və monitorinqin nəticələrinin nəzərə alınması. Əlbəttə, mütəmadi olaraq sadalanan mərhələlərin hər hansı birindən geri qayıdaraq təkrar təhlil aparmaq, müvafiq məsələləri daha detallı qiymətləndirmək zərurəti də yarana bilər.

İnvestorun layihəyə marağına təsir edən ən mühüm amillərdən biri kimi qeyri-müəyyənlikdir. Risklərin idarə edilməsi, artıq qeyd olunduğu kimi, investisiya layihəsində ümumi və konkret situasiyaya aid qeyri-müəyyənliyin sistemli surətdə aşağı salınması məqsədi ilə ehtimallı proseslərin idarə olunması prosesidir. İnnovasiyaların investisiyalaşdırılması üzrə risklərin idarə edilməsinin təhlili də, öz növbəsində bir neçə mərhələni əhatə etməklə, müvafiq mənbələrdə göründüyü kimi, aşağıdakı (şəkil) ardıcıllıqla həyata keçirilə bilər.

**I mərhələ.** Risklərin keyfiyyət təhlili:
1. Risklərin aşkar edilməsi;
2. Risklərin şərhi;
3. Risklərin təsnifatı;
4. İlkin fərziyyələrin müəyyən edilməsi.

↓

**II mərhələ.** Risklərin kəmiyyət təhlili:
1. Qeyri-müəyyənliyin aşkar edilməsi;
2. Risklərin hesablanması;
3. Risklərin qiymətləndirilməsi;
4. Mövcud risklərin seçilməsi.

↓

**III mərhələ.** Ssenarilərin proqnozlaşdırılması:
1. Mümkün ssenarilərin hazırlanması (hesablanması);
2. Daha yüksək ehtimallı ssenarilərin seçilməsi;
3. Səmərəliliyin ehtimallı meyarlarının hesablanması.

↓

**IV mərhələ.** Risklərin idarə olunması. Risklərə nəzarət:
1. Yekun strategiyasının müəyyən edilməsi;
2. Risklərin monitorinqi;
3. Riklərin təshih edilməsi;
4. Risklərin dəyişdirilməsi üzrə operativ qərarların qəbul edilməsi.

***Şəkil. İnvestisiya layihəsinin təhlili mərhələləri. Mənbə: (3)***

**AUDİT 2023, 2 (40), səh. 17-27.**
**AUDIT 2023, 2 (40), pp. 17-27.**
**АУДИТ 2023, 2 (40), стр. 17-27.**

İlkin mərhələ risklərin keyfiyyət, ikinci mərhələ isə kəmiyyət təhlili üzrə addımları əhatə edir. Keyfiyyət təhlili risklərin aşkar edilməsi, şərhi, təsnifatı və ilkin fərziyyələrin müəyyən edilməsini nəzərdə tutursa, risklərin kəmiyyət təhlili, ilk növbədə, qeyri-müəyyənliyin aşkar edilməsini, risklərin hesablanmasını, onların qiymətləndirilməsi məsələlərini əhatə edir.

Aqrar-sənaye sahələrində innovasiyalı fəaliyyətlərin investisiyalaşdırılması inkişafın strateji istiqamətlərindən biri olmaqla, müvafiq proseslərin strateji idarə edilməsinə kreativ yanaşma tələb edir. Həmin yanaşmaların digər özünəməxsusluğu innovasiyalara investisiyaların maliyyələşdirilməsi və sahədə maliyyə dayanıqlığının vəziyyəti arasında əlaqənin özünəməxsusluğu ilə bağlıdır. Həmin sahələrdə innovasiya layihələrinini idarə edilməsində strateji prioritetlərin reallaşdırılması, həmin sahələrdə fəaliyyət göstərən istehsal və xidmət subyektlərinin yaxın və orta perspektivə maliyyə dayanıqlığını şərtləndirən mühüm amil rolunda çıxış edir.

Layihə risklərini müəyyən etmək və onların təsirini azaltmaq və ya riskin baş verməsinin qarşısını almaq üçün strategiyaların işlənib hazırlanması müvafiq risklərin idarə edilməsinin mühüm və start komponentidir. Qeyri-müəyyənlik, başqa sözlə, gözlənilməz bir hadisənin baş verə biləcəyi və onun layihənin məqsədinə təsir edəcəyi ehtimalı, demək olar ki, həmişə vardır. Yalnız risklər və onların şərtləndirəcəyi vəziyyətlər və proseslər müəyyən edildikdən sonra zərərin qarşısını almaq və onu səmərəli aradan qaldırmaq barədə qərar qəbul edilə bilər (15).

İnnovasiyaların investisiyalaşdırılmasına dair idarəetmə qərarlarının hazırlanması və qəbulu zamanı tərəfdaşların (layihə iştirakçılarının) innovasiyalı inkişafda maraqlarının birgəliyi üçün atılan addımların səmərəliliyi kompromis variantların seçimi üçün əlverişli şərait yarada bilər. Kompromis variant axtarışının nəticələrinin qiymətləndirilməsində, zənnimizcə, çoxmeyarlı yanaşmalar məqsədəuyğundur.

İnvestisiya layihəsi hazırlayanların risklərin idarə edilməsi imkanlarına, o cümlədən zəruri metodiki və informasiya bazasına malik olmaması, habelə həmin imkanların institusional səbəblərdən heç də həmişə hərtərəfli araşdırılmaması hallarına təcrübədə rast gəlinir (9, s. 163-173). Müraciət olunan mənbədə layihə risklərinin idarə edilməsi strategiyasının onun planlaşdırılması, nəzarət və monitorinqin vahid rakursda tətbiqi tövsiyə olunur. Məsələ ondadır ki, təcrübədə sadalanan bu mərhələlər arasında ziddiyyətlərin əmələ gəlməsi heç də nadir hal deyildir. Haqqında danışılan vəziyyətə, yəni risklərin hərtərəfli araşdırılmaması hallarına innovasiyaların investisiyalaşdırılması zamanı daha tez rast gəlinir. Bu və digər səbəblərdən risklərin idarə edilməsi sistemində atılan addımların təshih olunmasına və bu məqsədlə, artıq qeyd olunduğu kimi, əvvəlki mərhələlərə qayıtmağa ehtiyac yaranır.

Qabaqcıl rəqibin təcrübəsindən istifadə etmək cəhdləri, heç də nadir rast gəlinən hal deyildir. Təcrübə göstərir ki, aqrar-sənaye sahələrində innovasiyaların investisiyalaşdırılması proseslərirn idarə edilməsində rəqabət aparan tərəfin innovativ addımlarının olduğu kimi təkrarlanması, investisiyaların idarə edilməsində tələskənliyə və əsaslandırılmamış addımlara gətirib çıxara bilər. Belə vəziyyətin qarşısını almaq üçün müvafiq mənbələrdə hesab edilir ki, "innovasiya-investisiya fəaliyyəti mühitinin tələblərinə fəal surətdə uyğunlaşmaq lazımdır. Bu

**AUDİT 2023, 2 (40), səh. 17-27.**
**AUDIT 2023, 2 (40), pp. 17-27.**
**АУДИТ 2023, 2 (40), стр. 17-27.**

məqsədlə sahədə innovasiyalı inkişafın ssenari proqnozlaşdırılması aparılmalıdır. Həmin proqnozların nəticəsi olaraq idarəetmə alt sistemi kənar mühitdə baş verəcək dəyişikliklər fonunda səmərəli fəaliyyət göstərə bilməlidir (4, s.21).

Müasir aqrar-sənaye istehsalı subyektlərinin idarə edilməsində malliyyə innovasiyalarının tətbiqinin təşviqi mühüm əhəmiyyətə malikdir. Başqa sözlə, investorların aqrobiznes təmsilçilərinin sahənin rəqabət üstünlüklərindən yararlanmasına xidmət edən innovasiyalara marağının gücləndirilməsinin vacib istiqaməti sayılmalıdır. İnnovasiyalı fəaliyyətin genişləndirilməsi məqsədilə yeni maliyyə alətlərindən istifadə investor və aqrobiznes subyektlərinin birgə marağını reallaşdırmaq üçün kifayət qədər əlverişli şərait yarada bilər.

İnnovasiyalı fəaliyyət mühitində investisiya proseslərinin idarə edilməsində məhz idarəetmə innovasiyalarından istifadə imkanlarına münasibət, müvafiq mənbələrdə kifayət qədər fərqlidir. Bununla belə, hesab edilir ki, haqqında danışılan mühitdə kreativ düşüncənin məhsuldarlığı ehtimalı kifayət qədər yüksəkdir (10,s.87-92). Aqrar-sənaye sahələrində innovasiyalı investisiya proseslərinin idarə edilməsində bu baxımdan həm investorların, həm də investisiyaya tələbi ortaya qoyan subyektlərin rəqəmsal texnologiyaların tətbiqinə marağını əhəmiyyətli dərəcədə artırır.

Eyni zamanda qeyd edək ki, aqrar-sənaye sahələrində innovasiyalı fəaliyyət göstərən subyektlərin investisiya təminatı onların iqtisadi fəallığı səviyyəsi ilə əhəmiyyətli dərəcədə əlaqədardır. Daha doğrusu innovasiya bazarında istənilən iştirakçının fəallığı, yeni mənbələr və vasitələr axtarışını təşviq edə bilir.

Aqrar-sənaye müəssisəsində investisiya fəaliyyətinin (investisiya layihəsinin) yerinə yetirilməsinin təşkilində nəzərdə tutulan istənilən dəyişiklik hərtərəfli maliyyə və texniki – iqtisadi təhlil aparılmasını tələb edir. İnvestisyaların məqsədəuyğunluğu səviyyəsi, ilkin yanaşmada əldə edilən gəlirlərlə ölçülür. Daha doğrusu investisiyaları kifayət qədər yüksək rəqabət qabiliyyətinə malik məhsulun (xidmətin) istehsalından gözlənilən gəlirlərinin artırılması meyarı üzrə qiymətləndirilməklə, əməkdaşlara təhlükəsiz və layiqli əmək şəraitinin yaradılması və bir sıra digər məhdudiyyət şərtləri daxilində istehsal və texnoloji proseslərin optimal təşkili imkanları aşkar edilməlidir.

İnvestisiya müqaviləsinin hazırlanması və maliyyələşmə sisteminin formalaşması da ciddi təhlil və davamlı digər araşdırmalar tələb edən çoxmərhələli bir prosesdir. Müvafiq mənbələrdə investisiya müqaviləsinin imzalanmasına qədərki mərhələlər aşağıdakı kimi təqdim edilir:

I mərhələ. Layihənin ilkin təhlili. Bu zaman aşağıdakılar əhatə edilir: təklif olunan investisiya layihəsinin strategiyası kontekstində sahə, bazar təhlili; biznes modeli, onun xüsusiyyətləri, faydaları, riskləri və məhdudiyyətləri və s.

II mərhələ. Maliyyə modelinin və biznes planın ətraflı təhlili.

III mərhələ. Layihədə investorun iştirakının qiymətləndirilməsi.

IV mərhələ. Maliyyələşdirmə qrafikinin və mərhələlərinin müəyyən edilməsi.

V mərhələ. Təklif, danışıqlar və investisiya müqaviləsinin imzalanması (6).

Aqrar-sənaye sahələrində investisiya-innovasiya proseslərinin strateji idarə edilməsi sis-

AUDİT 2023, 2 (40), səh. 17-27.
AUDIT 2023, 2 (40), pp. 17-27.
АУДИТ 2023, 2 (40), стр. 17-27.

temi aqrar sahədə qalmaqda olan ciddi problemləri (texniki vasitələrin köhnəliyi, kənd təsərrüfatı məhsulları istehsalının aşağı rentabelliyi, torpaqların vəziyyətinin qənaətbəxş olmaması, kadrlarla təminatın arzu edilən səviyyədə olmaması və s) nəzərə almalıdır.

Aqtrar-sənaye sahələrində reallaşdırılan investisiya layihələri, artıq qeyd olunduğu kimi müxtəlif risklərlə rastlaşır. Həmin risklərin qruplaşdırılmasına da yanaşmalar fərqlidir. Zənnimizcə, bu baxımdan aşağıdakı mənbədə rast gəldiyimiz yanaşma diqqətə layiqdir. Belə ki, burada innovasiyalı investisiya layihələri üçün xarakterik olan risklərin əsas növləri kimi, müvafiq mənbələrdə aşağıdakılar aid edilir: "texnoloji və əməliyyat riskləri (texnologiya seçimi, materiallarla və avadanlıqlarla bağlı risklər, gözlənilməz dəyişikliklərlə bağlı və s. risklər); insan amili ilə əlaqədar təşkilati risklər (təşkilati, fərdi, komanda riskləri); müqavilə riskləri; maliyyə (iqtisadi) risklər (inflyasiya, faiz dərəcələrinin dəyişməsi, məzənnədə kəskin tərəddüdlər); siyasi risklər (8, s. 1025).

Burada texnoloji və əməliyyat riskləri dedikdə, ilk növbədə, texnologiya seçimi zamanı bütün əsas amillərin nəzərə alınmaması ilə bağlı risklər; materiallarla və avadanlıqlarla təchizat prosesində yaranan risklər; gözlənilməz dəyişikliklərin yüksək tezliyi ilə bağlı olan risklər nəzərdə tutulur.

Təşkilati müstəvidə yaranan risklər insan amili ilə bilavasitə bağlı olmaqla, aşağıdakı kimi fərqləndirilir: biznes subyektinə aid olan təşkilati risklər; işçinin özü üçün yarana bilən fərdi risklər; kollektivlərin fəaliyyətində meydana çıxan komanda riskləri və s. Müqavilə riskləri qismində maliyyə-iqtisadi risklər önə çəkilir. Burada inflyasiya, faiz dərəcələrinin dəyişməsi, valyutaların məzənnəsində yaranan kəskin tərəddüdlər (dalğalanmalar) qeyd olunur.

Aqrar – sənaye sahələrində innovasiyalara yatırılan investisiyaların idarə edilməsi prosesində risklərin səmərəli surətdə neytrallaşdırılması zəruridir. Müvafiq risklərin təsnifatına fərqli yanaşmalar vardır. Zənnimizcə, haqqında danışılan sahələrdə innovasiyalara yatırılan investisiyaların idarə edilməsi prosesində qarşıya çıxan risklərin iqtisadi, maliyyə, sosial, texnoloji, ekoloji və bir sıra digər əlamətlər üzrə təsnifləşdirmək olar. Böyük əksəriyyətinin sığortalanma vasitəsilə tənzimləndiyi iqtisadi riskləri şərtləndirən əsas amil, bazarın müvafiq seqmentində kəskin dəyişikliklərin baş verməsidir. Maliyyə riskləri, əsasən maliyyə resurslarının çatışmazlığı səbəbindən meydana çıxır. İnvestisiya resurslarının cəlb edilməsinə optimal yanaşma bu riskləri əhəmiyyətli dərəcədə azalda bilər. Sosial risklərdə işçi heyətinin kəmiyyət və keyfiyyətində çatışmazlıqlar, yerli idarəetmə strukturları ilə ziddiyyətli münasibətlər əhəmiyyətli xüsusi çəkiyə malik olur.

Aqrar-sənayə sahələrində səmərəli fəaliyyət innovasiyalı –intensiv inkişaf tələblərinə cavab verməlidir. Odur ki, burada texnogen mühitə xas olan risklərlə qarşılaşmaq heç də nadir hal deyildir. Deyək ki, kənd təsərrüfatı istehsalının intensivləşməsi gübrə, texnika və kimyəvi maddələrdən istifadəni artırır, yüksək enerji tutumlu aqrotexnologiyalardan istifadəni zəruri edir. Belə vəziyyət kənd təsərrüfatı təyinatlı xammalın keyfiyyətinə kifayət qədər ciddi təsir etməklə aqrar-emal sahələrinin işinə təsirsiz qalmır. Texnoloji risklər ətraf mühitdə gözlənilməz fəsadlar törədə bilər. Ekoloji risklərin idarə edilməsinin nəticələri aqrar-sənaye sahələrinin dayanıqlı inkişafının əsas xarakteristikalarında ifadə oluna bilər.

**AUDİT 2023, 2 (40), səh. 17-27.**
**AUDIT 2023, 2 (40), pp. 17-27.**
**АУДИТ 2023, 2 (40), стр. 17-27.**

İnvestisiya layihəsinin idarə edilməsində risklərin mərhələli qaydada qiymətləndirilməsi təcrübədə daha geniş yayılmış yanaşmadır (2). Bu zaman nəzərə alınır ki, layihənin hər bir mərhəsində (hazırlıq, icra, istismar) risklərin xarakterində və onlara yanaşmalarda əhəmiyyətli fərqlər olur. Deyək ki, hazırlıq mərhələsində daşıma məntəqələrindən məsafə, alternativ xammal mənbələrinin nəzərə alınmaması, sənədləşmədəki çatışmazlıqlarla və s. əlaqədar risklər aktuallaşırsa, icra mərhələsində əsasən tədarükdə, sifarişçi tərəfindən ödəniş-lərdə ləngimələrlə, podratçının məsuliyyətsiz davranışı ilə əlaqədar risklər önə çıxır.

Hazırda innovasiyaların tətbiqinə yönəlik investisiyaların gəlirliyinin artırılması istiqamətlərindən biri, məhz risk ehtimalı daha yüksək olan iqtisadi fəaliyyətlərin maliyyələşdirilməsidir. Aqrar-sənaye sahələrində innovasiyaların investisiyalaşdırılması proseslərirində risklərə münasibətdə fərqli yanaşma kimi vençur layihələrinin investisiyalaşdırılması qeyd olunmalıdır. Bu baxımdan onilliklər ərzində, əsasən innovasiyalı fəaliyyətin investisiyalaşdırılması istiqamətində əldə edilmiş təcrübə, maraqlı tərəflərin birgə motivləşdirilməsi halında ciddi uğurların əldə edildiyini göstərir.

Bir sıra mənbələrdə vençur maliyyələşdirilməsi innovasiya biznesinin mühit yaradan amili hesab edilir. Hesab edilir ki, formalaşmış innovasiya mühiti "innovasiyaların dəstəklənməsinin infrastruktur bazasına; innovasiya fəaliyyətinin iştirakçılarının (elm, təhsil, dövlət, biznes) maraqlarını əhatə edən dəyər zəncirinə; innovasiya biznesinin vençur maliyyələşdirilməsi sisteminə və s." (5) malik olmalıdır.

Digər məqam çox yüksək gəlirə görə yüksək riskli layihəyə investisiya qoymaq istəyi ilə bağlıdır. Təbii ki, belə istək, zəruri maliyyə və təşkilatlanma imkanları ilə şərtlənir. Rəqəmsallaşmanın intensivləşməsi və iqtisadi fəaliyyətin, demək olar ki, bütün sahələrinə nüfuz etdiyi hazırki şəraitdə, böyük ehtimalla vençur biznesinin təşviqinin əsasında dolğun verilənlər bazası dura bilər.

Aqrar-sənaye sahələrində innovasiyalı inkişafın investisiyaya olan tələbatının ödənilməsində informasiyanın assimmetriyasının azaldılması da az rol oynamır. İnvestisiya bazarında, bazarın digər seqmentlərində olduğu kimi, informasiyanın assimmetriyası bazarda tələb-təklif qanununun fəaliyyətinə əhəmiyyətli dərəcədə mane olur (7).

Aqrar - sənaye sahələrində innovasiyalı inkişafın investisiya cəlbediciliyi, mütəxəssislərin rəyinə görə, xüsusilə postsovet məkanı ölkələrində kənd təsərrüfatı mənşəli yerli xammaldan istifadə səviyyəsi ilə birbaşa bağlı deyildir. Buna səbəb yerli aqrar istehsalın innovasiyalara həssaslıq səviyyəsinin aşağı olması, bir çox hallarda aqrar-emal sahələrində biznes subyektlərinin texnoloji innovasiyaların tələblərinə vaxtlı-vaxtında operativ reaksiya verə bilməmələridir. Rəqəmsal texnologiyalar, müvafiq mənbələrdə göstərildiyi kimi, haqqında danışılan problemlərin həlli baxımından əhəmiyyətli potensiala malikdir. Aqrar iqtisadiyyatda innovasiyalı proseslərin idarə edilməsi məqsədilə tövsiyə olunan yeni yanaşmalara və ümumiyyətlə, qabaqcıl təcrübəyə həssas münasibət mühüm amil hesab olunur (14, s. 154-166).

İnnovasiya klasterlərinin formalaşdırılması, aqrar-sənaye sahələrində innovasiyalara münasibətdə tərəfdaşlıq innovasiya potensialının birgə inkişafına və risklərin idarə edilməsi sisteminin təkmilləşdirilməsinə ciddi töhfə verə bilər. Həmin klasterlər innovasiyalı inkişafın

AUDİT 2023, 2 (40), səh. 17-27.
AUDIT 2023, 2 (40), pp. 17-27.
АУДИТ 2023, 2 (40), стр. 17-27.

ixtisaslaşdırılmış subyekti rolunda çıxış edə bilərlər. Belə ki, burada ideya və biliklərin mübadiləsi və yeni biliklərin generasiyası sistemi klaster daxilində daha səmərəli fəaliyyət göstərir. Bu məqsədlə, zənnimizcə aqrar-sənaye istehsalında sahə və ərazi idarəetməsinin optimallaşdırılması məqsədəuyğundur.

İnnovasiya klasterlərinin formalaşmasında sənaye siyasətinin yeri və rolunun tədqiqinə, aqrar-emal müəssisələrinin klaster əmələgətirmə imkanları araşdırılmasına ehtiyac hiss olunur. Bu zaman innovasiya klasterlərində investisiya risklərinin idarə edilməsi mühitinin özünəməxsusluqlarının aşkar edilməsi, zənnimizcə, xüsusi əhəmiyyətə malikdir.

Daxili və xarici investorların aqrar-sənaye sahələrində biznes subyektlərinin innovasiyalı inkişafında marağının dəstəklənməsi üçün risklərinin azaldılmasına xidmət edən tədbirlər aqrar-sənaye fəaliyyəti subyektlərinin rəqabət qabiliyyətinə müsbət təsir göstərməlidir. Bu halda həmin subyektlərin fəaliyyəti konkret zaman və məkanda oxşar profilli biznes subyektlərinin innovasiyalara marağının artmasını az-çox dərəcədə şərtləndirə bilər. Əlbəttə, artıq qeyd edildiyi kimi, innovasiyalı inkişafın investisiyalaşdırılması prosesləri və onların idarə edilməsi müxtəlif ssenari variantları arasında seçim əsasında həyata keçirilməlidir. İnnovasiyalı aqrar-sənaye fəaliyyətlərinin səmərəliliyinin təmin edilməsi institusional – iqtisadi və infrastruktur təminatının davamlı yeniliklərə uyğunlaşdırılması risklərin idarə edilməsi sisteminə müsbət təsir edəcəkdir. Məsələ ondadır ki, bu halda investisiya qərarlarının qəbulu və icrası zamanı təkcə istehsalın deyil, habelə satışın və müştəri yönümlü digər fəaliyyətlərin nəticələrini də nəzərə almaq üçün imkanlar genişlənəcəkdir.

## YEKUN

İnnovasiya biznesinin investisiyalaşdırılması layihəsi üzrə risklərin idarə edilməsi strategiyası - onun planlaşdırılması, reallaşdırılmasının monitorinqi və nəzarətin vahid rakursda həyata keçirilməsini nəzərdə tutmalıdır. İnvestorların və biznes subyektlərinin aqrar-sənaye sahələrinin innovasiyalı inkişafına marağı risklərin minimuma endirilməsinə yönəlik tədbirlərin rəqabət qabiliyyətinə təsirindən bilavasitə asılıdır. İnnovasiyalı inkişafın investisiyalaşdırılması proseslərinin səmərəli idarə edilməsi fərqli ssenarilər arasında seçim imkanları, sonuncular isə innovasiya və investisiya infrastrukturunun inkişaf səviyyəsi ilə bağlıdır. Aqrar - sənaye sahələrində innovasiya biznesinin investisiyalaşdırılması prosesində risklərin idarə edilməsi sisteminin təkmilləşdirilməsi istiqamətlərinə innovasiya klasterlərinin formalaşdırılması, biznes təmsilçilərinin təşkilatlanması, müvafiq verilənlər bazasının risklərin xarakteri və ehtimalı nəzərə alınmaqla yenidən strukturlaşdırılması və zənginləşdirilməsi, rəqəmsal texnologiyalardan istifadə, ideyaların yeni biliklərə generasiyasının digər vasitələri aid edilməlidir. Rəqəmsallaşmanın intensivləşməsi və iqtisadi fəaliyyətin, demək olar ki, bütün sahələrinə nüfuz etdiyi hazırki şəraitdə vençur biznesinin təşviqinin əsasında dolğun verilənlər bazası dura bilər. Böyük ehtimalla demək olar ki, rəqəmsal texnologiyaların tətbiqi şəraitində infrastrukturun yeniliklərə uyğunlaşdırılması risklərin idarə edilməsi sisteminə müsbət təsir edəcəkdir.

**AUDİT 2023, 2 (40), səh. 17-27.**
**AUDIT 2023, 2 (40), pp. 17-27.**
**АУДИТ 2023, 2 (40), стр. 17-27.**

## İstifadə olunmuş ədəbiyyat siyahısı:

1.Qasımov F.H., Əliyev T.N., Nəcəfov Z.M. Milli innovasiya sisteminin təşkili və idarə edilməsi. Bakı, "Elm və təhsil", 2013, 680 s.

2.Tagıyev A.H., Səfərov Q.Ə. İnnovasiya layihələrinin menecmenti. Bakı, "Təknur", 2013, 272 s.

3. Анализ риска: понятие, этапы. https://vuzlit.com/1155439/analiza_ riska _ ponyatie_etapy.12.12.2022.

4. Гончаренко Л.П.,Геращенкова Т.М. Инвестирование инновационных процессов в агропромышленном производстве как фактор повышения уровня продовольственной безопасности России // Финансы: теория и практика. 2014. №2. URL: https://cyberleninka.ru/article. 11.12.2022. с.13-23

5. Лурье Е.А. Инновационная Россия. 15-летие журнала «Инновации». [Электронный ресурс] //Инновации. 2011. № 9. Режим доступа: http: www.transfer. Eltech.ru /innov/archive.nsf

6. Attraction of investments: stages of investment project evaluation – https://esfccompany.com/en/articles/economics-and-finance/attraction-of-investments - stages-of-investment-project-evaluation, 2022.

7. Evan Tarver. How Financial Markets Exhibit Asymmetric Information. Updated July 28, 2022. https://www.investopedia.com/ ask/answers/042915/how-do-financial-market-exhibit-asymmetric-information.asp

8. Ferreira de Araújo Lima, P., Marcelino-Sadaba, S. and Verbano, C. (2021), "Successful implementation of project risk management in small and medium enterprises: a cross-case analysis",*International Journal of Managing Projects in Business*, Vol. 14 No. 4, pp. 1023-1045.https://doi.org/10.1108/IJMPB-06-2020-0203

9. Gachie, Wanjiru. (2017). Project risk management: A review of an institutional project life cycle. Risk Governance and Control: Financial Markets & Institutions. 7. 163-173. 10.22495/rgc7i4c1art8

10. Germanjuk, Natalia. (2018). İnvestments ın the development of ınnovatıve management ın the company. Baltic Journal of Economic Studies. 4. 87-92.10.30525/2256-0742/2018-4-4-87-92

11. Rıchard Best, Pamela Rodrıguez, Vikkı Velasquez/ The Step by Step Portfolio Planning Process. FINANCIAL ADVISOR PORTFOLIO CONSTRUCTION. Updated October 29, 2022. https://www.investopedia.com/articles/company-insights/083116/portfolio-planning-process-step-step.asp

12. Roberto Echandi, Jana Krajcovicova, Christine Zhenwei Qiang. The Impact of Investment Policy in a Changing Global Economy: A Review of the Literature. Policy research working papers. 17 nov 2015. https://doi.org/ 10.1596 /1813-9450-7437

13. Shvetsova, O.A.; Rodionova, E.A.; Epstein, M. Z. 2018. Evaluation of investment projects under uncertainty: multi-criteria approach using interval data, Entrepreneurship and Sustainability Issues 5(4): 914-928. http://doi.org/10.9770 /jesi.2018.5.4(15

14. Širá, Elena & Pukala, Ryszard. (2020). Management of agriculture innovations: Role in Economic Development.. Marketing and Management of Innovations. 154-166. 10.21272/mmi.2020.2-11

15. Sulastri, Lilis & Ady, Sri & Fitrio, Tomy & Hapsila, Angga & Surur, Miftahus. (2019). Review of Project Risk Management and Risk Assessment.

**AUDİT 2023, 2 (40), səh. 17-27.**
**AUDIT 2023, 2 (40), pp. 17-27.**
**АУДИТ 2023, 2 (40), стр. 17-27.**

*Fuad Maarif Ibrahimov,*
*Ph.D. (Econ.),*
*expert on economic issues of the*
*Socio-Economic and Ecological Research Center*
*E-mail: fuadibrahim@mail.ru*
*© F.M. Ibrahimov, 2023*

# RISK MANAGEMENT IN THE INVESTMENT PROCESS OF INNOVATIVE BUSINESS

## A B S T R A C T

The article gives a description of the risks faced by business entities in the process of investing in the innovative development of agro-industrial sectors, and studied the actual problems of their management.

**The purpose of the research** is to determine the possibilities for improving the risk management system in the investment process of innovative business in the agro-industrial sectors and to substantiate the directions for their implementation.

**The methodology of the research** – in the process of research, methods of observation, comparative analysis, scientific abstraction and logical generalization were used.

**The practical importance of the research** is that the substantiated provisions and the results obtained can be used in risk management in the development and implementation of investment projects for the development of innovative business in the agro-industrial sectors.

**The results of the research** – the environment of risk management in the investment process of innovative business in the agro-industrial sector was characterized, directions for improving management were identified.

**The originality and scientific novelty of the research** lies in the fact that the possibilities for improving the risk management system that arise in the investment process of the innovative agro-industrial business have been identified, and the means and directions for their implementation have been substantiated.

**Keywords:** innovation, risk, business, agro-industrial complex, investments, production, project, enterprise**.**

**AUDİT 2023, 2 (40), səh. 17-27.**
**AUDIT 2023, 2 (40), pp. 17-27.**
**АУДИТ 2023, 2 (40), стр. 17-27.**

*Ибрагимов Фуад Маариф оглы,*
*доктор философии по экономике,*
*эксперт по экономическим вопросам,*
*"Центр социально-экономических и экологических исследований"*
*E-mail: fuadibrahim@mail.ru*
*© Ибрагимов Ф.М., 2023*

## УПРАВЛЕНИЕ РИСКАМИ В ИНВЕСТИЦИОННОМ ПРОЦЕССЕ ИННОВАЦИОННОГО БИЗНЕСА

**Р Е З Ю М Е**

В статье дана характеристика рисков, с которыми сталкиваются субъекты предпринимательства в процессе инвестирования в инновационное развитие агропромышленных сфер, и изучены актуальные проблемы их управления.

**Цель исследования** – определить возможности совершенствования системы управления рисками в инвестиционном процессе инновационного бизнеса в агропромышленных сферах и обосновать направления их реализации.

**Методология исследования** – в процессе исследования использовались методы наблюдения, сравнительного анализа, научной абстракции и логического обобщения.

**Практическая значимость исследования** – обоснованные положения и полученные результаты могут быть использованы в управлении рисками при разработке и реализации инвестиционных проектов по развитию инновационного бизнеса в агропромышленных сферах.

**Результаты исследования** – охарактеризована среда управления рисками в инвестиционном процессе инновационного бизнеса в аграрно-промышленной сфере, определены направления совершенствования управления.

**Оригинальность и научная новизна исследования** заключается в том, что выявлены возможности совершенствования системы управления рисками, возникающими в инвестиционном процессе инновационного агропромышленного бизнеса, и обоснованы средства и направления их реализации.

**Ключевые слова:** инновации, риск, бизнес, агропромышленный комплекс, инвестиции, производство, проект, предприятие.

*Məqalə redaksiyaya daxil olmuşdur: 13.03.2023*
*Təkrar işləməyə göndərilmişdir: 27.03.2023*
*Çapa qəbul olunmuşdur: 03.04.2023*

*The date of the admission of the article to the editorial office: 13.03.2023*
*Send for reprocessing: 27.03.2023*
*Accepted for publication: 03.04.2023*

*Дата поступления статьи в редакцию: 13.03.2023*
*Отправлено на повторную обработку: 27.03.2023*
*Принято к печати: 03.04.2023*